AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 115-124
https://doi.org/10.59849/2664-5432.2026.2.115

Gültəkin ƏLİYEVA*

SADƏ CÜMLƏ STRUKTURUNDA AKSİONALLIQ VƏ SUBYEKT-PREDİKAT MÜNASİBƏTLƏRİNİN SEMANTİK-SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə aksionallığın, yaxud hərəkətin idarəolunmasının gizli kateqoriyası tədqiq olunur. O, Azərbaycan və rus dillərinin digər gizli qrammatik kateqoriyaları arasında özünəməxsus yer tutur. Elmi ədəbiyyatda feilləri aksional (məsələn, tullanmaq) və qeyri-aksional (məsələn, qoxumaq) olaraq bölmək qəbul edilmişdir. Xüsusi ifadə vasitələrinə malik olmayan aksionallıq ifadənin sintaktik quruluşunun xüsusiyyətləri vasitəsilə reallaşır. O, xüsusilə əsas xəbərlə feili bağlama arasında ümumi hərəkət icraçısının tələb olunmasında təzahür edir. Aksionallığın öz – свой mənsubiyyət əvəzliyinin işləndiyi konstruksiyalarda təzahürü göstərilir.

Açar sözlər: *aksionallıq, hərəkətin idarəolunması, hərəkət icraçısı, feili bağlama, mənsubiyyət əvəzliyi.*

Aksional cümlələr elə cümlələrə deyilir ki, orada hərəkətin və fəal icraçının (subyektin) mövcudluğu əsas rol oynayır. Belə cümlələr dinamik situasiyaları – hərəkəti, nitqi, əmək və ya digər fəaliyyət növünü təsvir edir. Subyektin obyektə yerdəyişməsi baş vermədən göstərdiyi müxtəlif növ təsirləri təsvir edən aksional propozisiyanın əsasında duran elementar sadə cümlələr aksional cümlələr adlandırılır.

Təqdim olunan mövzu müasir müqayisəli-tipoloji dilçilikdə mühüm yer tutan, sintaktik subyektin fəallığı və hərəkətin icra olunmasındakı rolunu əhatə edən aksionallıq kateqoriyasının Azərbaycan və rus dillərindəki təzahür xüsusiyyətlərinə həsr olunmuşdur.

Tədqiqatın əsas məqsədi hər iki dildə sadə cümlə səviyyəsində aksionallığın (agentliyin) linqvistik ifadə vasitələrini müqayisəli şəkildə araşdırmaq, onların struktur-semantik oxşar və fərqli cəhətlərini üzə çıxarmaqdır. Məqalənin obyekti aksional konstruksiyanın məzmun planıdır.

Aksionallıq kateqoriyası cümlə daxilində subyektin predikata münasibətini, onun hərəkətin şüurlu və ya fəal icraçısı (agent) olmaq statusunu tənzimləyən əsas semantik-sintaktik amillərdən biridir. Flektiv rus dili və aqlütinativ Azərbaycan dili fərqli tipoloji xüsusiyyətlərə malik olmasına baxmayaraq, hər iki dildə aksionallıq müəyyən qrammatik formalar (məsələn, təsirli feil kateqoriyası, qrammatik subyektin hal göstəriciləri) və leksik-semantik vasitələrlə reallaşır. Hər iki dildə

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun Sosiolinqvistika və psixolinqvistika şöbəsi, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: drgultekin.aliyeva@mail.ru

aksionallıq dərəcəsinin pozulması və ya subyektin sintaktik rolu ilə semantik fəallığının uyğun gəlməməsi üslubi və sintaktik xarakterli uyğunsuzluqlara (konstruktiv səhvlərə) səbəb ola bilər.

Aksionallıq geniş mənada subyektin obyektsiz və ya obyektli hərəkəti törətmək, ona təsir göstərmək qabiliyyətidir. Sadə cümlə səviyyəsində bu kateqoriya birbaşa predikatın semantikası və subyektin qrammatik xüsusiyyətləri ilə sıx bağlıdır.

Cümlədə qrammatik subyekt həmişə real agent (icraçı) olmur. Aksionallığın səviyyəsi ismin sintaktik rütbəsi ilə subyektin semantik potensialının uzlaşmasından asılıdır. Əgər cümlədəki subyekt ismin sintaktik rolu ilə korrelyasiya edən kifayət qədər aksionallıq dərəcəsinə malik deyilsə, belə konstruksiyalar sintaktik və üslubi uyğunsuzluqlara səbəb ola bilər.

Rus dilində aksionallıq (fəallıq, agentlik) sadə cümlənin strukturunda subyektin (mübtədanın) hərəkəti icra etmək dərəcəsini, onun predikatla (xəbərlə) əlaqəsini müəyyən edən mühüm semantik-sintaktik kateqoriyadır. Maksimal aksionallıq transitiv konstruksiyalarda subyekt hərəkəti şüurlu şəkildə yerinə yetirən fəal agent kimi çıxış edir. Xəbər isə təsirli feil ilə ifadə olunaraq hərəkətin obyektə yönəldiyini göstərir və mübtəda həmişə başlanğıc (ad) halında olur. "*Пётр отворил окно и стал смотреть во двор*." (A.S. Puşkin) Burada "*Пётр*" – fəal agent (maksimal aksionallıq), "*отворил*" – təsirli feil (fəaliyyətin obyektdə reallaşması). Subyektin sintaktik rolu ilə semantik fəallığı tam üst-üstə düşür. Azərbaycan dilində bu strukturda subyekt (mübtəda) hərəkətin şüurlu və iradi icraçısıdır (agent), xəbər isə təsirli feil ilə ifadə olunaraq hərəkətin enerjisini obyektə ötürür. Mübtəda ad halında çıxış edir. "*Mirzə Məmmədqərvəli qələmi götürüb tələsik yazmağa başladı*." (C. Məmmədquluzadə) "*Mirzə Məmmədqərvəli*" – fəal agent (maksimal aksionallıq), "*götürüb*" – təsirli feilin törətdiyi hərəkət, "*qələmi*" – hərəkətin obyektidir (təsirlik hal). Subyektin sintaktik mövqeyi ilə semantik fəallığı tam uyğun gəlir.

Dinamik-fəaliyyət xarakterli aksionallıq-obyektsiz fəallıq tipli sadə cümlələrdə subyekt hərəkəti icra edir, lakin hərəkət hər hansı bir xarici obyektə yönəlmir (təsirsiz feillər). "*Князь Андрей ехал по полю в молчании*." (L.N. Tolstoy) "*Князь Андрей*" – hərəkətin icraçısı olan subyekt, "*ехал*" – hərəkətin prosesual dinamikasını (aksionallığı) bildirən təsirsiz feil. Cümlə başlanğıc halda olan fəal subyektin məkan dəyişməsi aktını ehtiva edir. Azərbaycan dilində bu tipli sadə cümlələrdə subyekt hərəkəti özü icra edir, lakin hərəkət hər hansı xarici obyektə ötürülmür (təsirsiz feillər). Burada subyekt yenə də fəal agentdir, lakin aksionallıq daxilə yönümlüdür. "*Əkinçi tarlaya doğru irəliləyirdi*." (M.Ə. Sabir) "*Əkinçi*" – hərəkəti icra edən fəal subyekt, "*irəliləyirdi*" – prosesual dinamikanı bildirən təsirsiz feil. Subyekt başlanğıc haldadır və məkan dəyişməsi aktını fərdi şəkildə həyata keçirir.

Zəifləmiş aksionallıq və ya qeyri-şəxsi/passiv strukturda olan sadə cümlələr də var ki, orada qrammatik subyekt (və ya subyekt mövqeyində duran element) real

agent rolunda çıxış etmir. Bu zaman aksionallıq dərəcəsi aşağı düşür.) "*Мою дорогу занесло снегом*." (N.V. Qoqol) Bu cür qeyri-şəxsi və ya obyekt mərkəzli strukturlarda hərəkəti icra edən iradi agent yoxdur ("*снегом*"). Fəallıq təbii qüvvənin və ya hadisənin üzərinə düşdüyü üçün klassik aksionallıq modeli transformasiyaya uğrayır. Zəifləmiş aksionallıq və ya qeyri-şəxsi/passiv strukturlar Azərbaycan dilində də bəzi sadə cümlələrdə qrammatik subyekt real agent rolunda çıxış etmir və ya ümumiyyətlə fəal icraçı arxa plana keçir. Bu zaman aksionallıq dərəcəsi azalır. "*Qala qapıları birdən-birə taybatay açıldı*." (S. Vurğun) Bu konstruksiyada hərəkəti şüurlu şəkildə icra edən iradi agent (şəxs) göstərilməyib. "*Qala qapıları*" qrammatik subyekt mövqeyində olsa da, məchul növ feilin təsiri ilə aksionallıq obyektə və ya baş verən hadisənin özünə köçmüşdür.

Bu məqalədə müxtəlifcinsli, bir-birindən asılı olmayan görünə bilən bir neçə problemi də nəzərdən keçirək. Birinci problem Azərbaycan və rus dillərinin qrammatikasında cümlə üzvlərinin təsnifatıdır. Məlum olduğu kimi, cümlə üzvləri sistemi hər iki dilin qrammatika elminə antik fəlsəfədən miras qalmışdır. Vaxtaşırı tənqidə məruz qalmasına baxmayaraq, onun əsasları uzun müddət sarsılmaz olaraq qalacaqdır. Xüsusilə, uzlaşmayan təyinlərlə qeyri-müəyyən tamamlıqların, qeyri-müəyyən tamamlıqlarla zərfliklərin fərqləndirilməsi problem təşkil etmişdir. Linqvistik tənqidin və yenidən baxış cəhdlərinin digər obyekti mübtədanın adlıq halın (nominativin) morfoloji formasına sərt şəkildə bağlanmasıdır. XX əsrin ortalarında formal-morfoloji təsnifat prinsipləri semantik-sintaktik yanaşma ilə sıxışdırılıb çıxarılmağa başlandı. "*Yalnız formal, "xarici" əlamətlərə həddən artıq böyük önəm verən ənənəvi yanaşma yalnız adlıq haldakı ismi və ya isim birləşməni, həmçinin məsdəri mübtəda kimi qəbul edir. Mübtədanın adlıq halla eyniləşdirilməsi dildəki cümlə modellərinin sayının süni şəkildə azalmasına deyil, ilk növbədə, cümlə daxilindəki sintaktik əlaqələrin səthi və yanlış başa düşülməsinə gətirib çıxarır*" [Попова: 2009, s.29]. Bu ziddiyyətlərin dərk edilməsi "aktant-rol qrammatikası"nın mövqelərinin güclənməsinə [Мустайоки: 2006, s.160-164; Левицкий: 2011, s.227] və "qeyri-müəyyən hallarda mübtəda"nın (mübtədanın qeyri-müəyyən hallarda ola bilməsi imkanının) etiraf olunmasına səbəb olur [Шмелёв: 1976, s.34-38; Попова: 2009, s.17-18; Циммерлинг: 2012]. Lakin, aşağıda görəcəyimiz kimi, bu ideyaların praktiki reallaşması semantik rolların ifadə üsullarına söykənir (və ya qarşıya çıxan maneələrlə üzləşir).

İkinci problem gizli qrammatik kateqoriyalardır. Bu anlayışı elmə ilk dəfə XX əsrin 30-cu illərində B.L. Uorf daxil etmişdir [Уорф: 1972]. Söhbət özünün xüsusi formal (təkcə morfoloji deyil) təzahürlərinə malik olmayan, lakin sözün kontekstdəki davranışı vasitəsilə dolayısı ilə aşkar olunan həmin qrammatik mənalardan gedir. Uorf belə gizli kateqoriyaların, yəni implisit tipli nümunə kimi ingilis dilində isimlərin cinsini və ya ingilis feillərinin keçidli olmamasını göstərirdi. Rus dilinə gəldikdə isə, alimlər xüsusilə müəyyənlik/qeyri-müəyyənlik və ya ismin fəallıq gizli kateqoriyalarından (sonuncu məktəb qrammatikasındakı "canlılıq" kateqoriyası ilə uyğun gəlir) bəhs edirlər.

Rus dilində digər gizli qrammatik kateqoriya – aksionallıq, yaxud feil hərəkətinin idarəolunması adlanır. Söhbət müəyyən bir hərəkətin kimsə tərəfindən tamamilə şüurlu və məqsədyönlü şəkildə icra edilməsi kimi qiymətləndirilməsindən gedir. Formal baxımdan, aksional (idarəolunan) hərəkəti bildirən feil bitkin növdə inkarda əmr şəklində işlənə bilməz. Rus dilində *Не напиши!* (*Yazma!*), *Не зайди к бабушке*! (*Nənəgilə baş çəkmə!*), *Не прочитайте этот текст!* (*Bu mətni oxumayın!*) və s. demək qeyri-mümkündür. Belə bir feil inkarda əmr şəklində yalnız preventiv (xəbərdaredici) mənada işlənə bilər (bu zaman idarəoluna bilirlik sıfıra yaxınlaşır): *Только не оступись!* (*Təki büdrəmə!*), *Не опоздай!* (*Gecikmə!*), *Смотри не зайди к бабушка раньше времени!* (*Bax, vaxtından əvvəl nənəgilə gedib çıxma!*) və s. Rus qrammatikasında bu problemlə ilk məşğul olanlardan biri olan T.V. Bulıgina vurğulayırdı ki, gizli kateqoriyanın ayrılması üçün əsas şərt onun dolayısı ilə ifadə olunmasının qrammatik xarakter daşımasıdır [Булыгина, Шмелёв: 1997, s.31]. O, "idarəolunan və idarəolunmayan vəziyyətlər" gizli kateqoriyadan danışarkən [Булыгина, Шмелёв: 1997, s.97], bunun ifadə olunduğu məqamlar kimi feillərin başlanğıc məna ideyası ilə uzlaşmasını göstərirdi. Mahiyyət etibarilə belə çıxır ki, gizli qrammatik kateqoriya ilə "açıq" kateqoriya arasındakı fərq ondadır ki, birincinin ifadəsi müntəzəm xarakter daşıyır, ikincinin ifadəsi isə sadəcə müntəzəm deyil, həm də məcburi olmalıdır.

Daha sonrakı işlərdə, xüsusilə Qordiyevskayada rus dilinin gizli kateqoriyası "sintaktik davranış anomaliyaları" əsasında sistemləşdirilməyə cəhd edilir [Гордиевская: 2016]. Xüsusilə, hərəkətin idarəolunması / idarəolunmaması kateqoriyası ilə yanaşı, "törəmə" sərbəst / qeyri-sərbəst kateqoriyası, eləcə də fəallıq / ətalətlilik kateqoriyası ayırd edilir [Гордиевская: 2016, s.131-133]. Biz əmin deyilik ki, gizli mənaların bu cür xırdalanması məhsuldardır, lakin şübhə yoxdur ki, təsvir edilən bütün hallarda morfoloji formaların və sintaktik konstruksiyaların yaranmasına qoyulan qadağalar semantik təbiətə malikdir.

Bizim fikrimizcə, feili sifət və feli bağlama konstruksiyalarında da (rus dilində деепричастия) aksionallığın, yəni hərəkətin idarəolunmasının gizli kateqoriyasını aşkar etmək üçün əsaslar mövcuddur. Rus qrammatikasında feili bağlamalar ifadədə ikinci dərəcəli (əlavə) xəbər rolunu oynayan və eyni zamanda əsas hərəkəti zərflik baxımından – zaman, məqsəd və s. aspektlərdə xarakterizə edən kateqoriya kimi şərh olunur. Məhz feili bağlamanın feili təbiəti onun sintaktik davranışının mühüm xüsusiyyətini müəyyən edir. Ali məktəb dərsliyində bu barədə belə deyilir: "*Xəbərin və feili bağlama formasının eyni subyektə aid olduğu güman edilir*" [Русский язык: 2001, s.616]. Bu "eynisubyektlilik qaydası" rus qrammatikasında "subyekt" termininin bir neçə məna daşıması səbəbindən xeyli mürəkkəbləşir. Bu mənalar bəzi cəhətlərdən üst-üstə düşür, bəzi cəhətlərdə isə çarpazlaşır və bir-birini tamamlayır.

Xüsusən də V.İ. Sergeyevanın məqaləsində göstərilir ki, mübtəda, qrammatik subyekt, semantik subyekt və məntiqi subyekt anlayışları onları təşkil

edən əlamətlər dəstinə görə bir-birindən fərqlənir [Сергеева: 1983, s.68]. Q.A. Zolotova isə cümlənin subyektinə semantik-sintaktik kateqoriya kimi diqqət yetirərək (bu, "predikativ əlamətin daşıyıcısını bildirən subyekt-predikat strukturunun sintaktik cəhətdən müstəqil komponentidir") daha sonra isə 14 növ subyektin siyahısını təqdim edir. Onların arasında həm hərəkət subyekti (*Мастер работает. – Usta işləyir.*), həm vəziyyət subyekti (*Ребенок спит. – Uşaq yatır.*), həm mülkiyyət subyekti (*У соседа сад. – Qonşunun bağı var.*), həm tematik subyekt (*С билетами повезло – Biletlərlə bəxtimiz gətirdi.*), həm də lokativ subyekt (*За окном метель. – Pəncərə arxasında çovğundur.*) və s. vardır [Золотова: 1981, s.33-35]. Aydındır ki, ad halının ənənəvi forması bu sırada xüsusi yer tutsa da, heç bir şəkildə subyekt funksiyasını özündə birləşdirmir.

Formal subyektin (ad halındakı mübtədanın) və semantik subyektin (predikativ əlamətin daşıyıcısının) əzəli ziddiyyəti təkcə nəzəri mübahisələrə səbəb olmaqda davam etmir, həm də praktiki tövsiyələri mürəkkəbləşdirir. Belə ki, D.E. Rozentalın dərsliyində də əvvəlcə deyilir: "Feili bağlamanın (və ya feili bağlama tərkibinin) bildirdiyi hərəkət, adətən, həmin cümlənin mübtədasına aid olur" [Розенталь: 1999, s.323]. Lakin görünür, mübtədaya istinad etmək kifayət etmir və müəllif dərhal "hərəkət icraçısı" anlayışını daxil etməyə məcbur olur: "Əgər xəbərfelin bildirdiyi hərəkətin icraçısı ilə feili bağlamanın bildirdiyi hərəkətin icraçısı üst-üstə düşmürsə, feili bağlama tərkibinin işlədilməsi üslubi cəhətdən səhvdir" [Розенталь: 1999, s.323]. Mübtədaya gəldikdə isə, artıq deyildiyi kimi, istənilən məktəbli onu formal əlamətinə görə (cümlədə ad halında olan ismi aşkar etməklə) təyin edə bilər. Amma "hərəkət icraçısı"nın nə olduğunu müəyyənləşdirmək o qədər də asan deyil. *Бабушка вяжет носок*. (*Nənə corab toxuyur.*) – burada hərəkət icraçısı, əlbəttə ki, nənədir. *Следы ведут во двор*. (*İzlər həyətə aparır.*) cümləsində isə hərəkət icraçısı, açıq-aydın ki, izlərdir. *Руки дрожат от холода*. (*Soyuqdan əllər əsir.*) – burada hərəkəti kim və ya nə icra edir? *Язык щиплет от кислого?* (*Turşudan dil göynəyir?*) *Ключ сломался в замке?* (*Açar qıfılda sındı?*) *Чемпиона устраивает ничья?* (*Çempionu heç-heçə qane edir?*) *Награда нашла героя?* (*Mükafat qəhrəmanını tapdı?*) "Qeyri-ənənəvi" mübtədası olan çoxsaylı ifadələrə münasibətdə "Hərəkəti kim icra edir?" sualı ümumiyyətlə qeyri-düzgün görünür.

Belə bir nəticə öz-özünə ortaya çıxır: hərəkət icraçısı gizli qrammatik kateqoriyadır və üstəlik, qeyri-dəqiq çoxluq quruluşuna malikdir. Başqa sözlə, bəzi hallarda konkret ifadəyə münasibətdə əminliklə deyə bilirik: "Budur, hərəkətin icraçısı", digər hallarda isə belə bir əminliyimiz yoxdur, subyektin hərəkət icraçısı kimi anlayışı zəifləyir. Dil daşıyıcıları, məsələn, aşağıdakı ifadələrdə təqdim olunan müxtəlif "subyektlik dərəcəsini" hiss edirlər: *Prezident konstitusiyanı dəyişmək istəyir*. (*Президент хочет изменить конституцию.*); *Qrenlandiya konstitusiyanı dəyişmək istəyir*. (*Гренландия хочет изменить конституцию.*); *Qrenlandiyada konstitusiyanı dəyişmək istəyirlər*. (*В Гренландии хотят изменить конституцию.*); *Qrenlandiya konstitusiyasını dəyişmək istəyirlər*.

(*Конституцию Гренландии хотят изменить*.); *Qrenlandiya Konstitusiyasında dəyişikliklər gözlənilməndir və vaxtındadır*. (*Изменения в Конституции Гренландии ожидаемы и своевременны*.) və s. Hərəkət subyektinin müəyyənlik və fəallıq dərəcəsi burada birinci misaldan sonuncuya doğru istiqamətdə azalır.

Qeyd etmək lazımdır ki, "gizli" qrammatik mənalar dilçilər tərəfindən dəfələrlə qeyd edilmişdir. Üç rus müəllifinin "Kommunikativ qrammatika" əsərində həm aksionallığın intensivlik əlaməti ilə gücləndirilməsinə, həm də onun ilkin vəziyyətinə qayıtması dərəcəsinə qədər zəifləməsinə yol verilir [Золотова, Онипенко, Сидорова: 1998, s.134-135]. Sloven tədqiqatçısı A. Jele sloven dilində agentliyin gradasiyasını "icraçı / səbəbkar / təşəbbüskar"dan "fiktiv mübtəda"ya qədər qurur [Желе: 2011, s.96-99]. Təbii ki, agentliyin müxtəlif dərəcələri onun tərəfindən hər şeydən əvvəl feil formalarına – şəxsli, məchul, şəxssiz formalara və s. bağlanır. M.L. Gordiyevskaya isə artıq adı çəkilən məqaləsində kifayət qədər geniş rus konstruksiyalarını təhlil edərək konkret bir səbəbdən qeyd edir: "Rus dilinin daşıyıcıları üçün gülmək halı qəmlənməklə müqayisədə daha çox idarəolunan kimi görünür" [Желе: 2011, s.96-99]. Doğrudan da, aksionallığın tədricən dəyişməsi şəklində başa düşülməsi o deməkdir ki, şüurda subyektin agentlik dərəcəsi eyni ola bilməz və müxtəlif sintaktik konstruksiyalar bu dərəcəni əks etdirməyə qadirdir.

Müxtəlif ifadələrdə təmsil olunan bu və ya digər subyektlik dərəcəsini eksperimental yolla ölçməyə çalışaraq biz, bir tərəfdən, bu anlayışın adlıq halın morfoloji göstəricisi ilə (məktəb qrammatikası öz işini görür!), digər tərəfdən isə ismin leksik semantikası – məhz onun şəxsliliyi, yəni insanı bildirmək qabiliyyəti ilə sıx əlaqəsini aşkar etdik [Норман: 1994, s.164-170]. Subyektin aksionallıq dərəcəsi məchul və şəxssiz konstruksiyalarda, həmçinin subyekt sintaktik cəhətdən asılı mövqeyə keçirildikdə avtomatik olaraq aşağı düşür.

İndi isə feili-sifətlərə, və ya feili bağlamalara nəzər salaq. Nitq məlumatlarına əsasən, "vahid subyektlik" qaydasını ("Xəbərin və feili bağlama tərkibinin eyni subyekti olmalıdır") dəqiqləşdirməyə ehtiyac duyulur. Belə ki, aşağıdakı ifadələr tamamilə təbii görünür:

Yol örtüyü müntəzəm olaraq qardan təmizlənir. – Дорожное полотно регулярно очищается от снега. Yol örtüyü lazımi (və ya müvafiq) vəziyyətdə saxlanılır. – Дорожное полотно поддерживается в надлежащем состоянии.

Lakin bu iki propozisiyanı birləşdirərək şəxsli feil formalarından birini feili bağlamaya transformasiya edən kimi bütün konstruksiya olduqca şübhəli görünməyə başlayır:

Qardan müntəzəm olaraq təmizlənərək, yol örtüyü lazımi vəziyyətdə saxlanılır. – Регулярно очищаясь от снега, дорожное полотно поддерживается в надлежащем состоянии.

Bu – həm əsas, həm də ikinci dərəcəli hər iki hərəkətin eyni bir subyektə aid olmasına baxmayaraq baş verir. Lakin bu subyekt kifayət qədər aktiv deyil! Görünür, rus dilində feili bağlama tərkiblərinin sintaktik işlənmə qaydasını belə

yenidən formullaşdırmaq lazımdır. Tərkib təkcə mübtədaya deyil, məhz hərəkət icraçısının adına, yəni aktiv subyektə aid edilməlidir. Feili bağlama tərkibinin əvəzlənməsinin qanunauyğunluğu məhz sonuncunun aksionallıq dərəcəsindən asılıdır.

Əsas hərəkət subyekti ilə "feili bağlama hərəkəti" subyektinin eyni obyektə istinad edilmə şərti rus grammatikasının nisbətən sonrakı tələbidir. Əlavə olaraq bizi maraqlandırır ki, insan bu kateqoriyanı nə dərəcədə hiss edir: bu, həqiqətənmi elə dilin özünün kateqoriyasıdır (qoy gizli olsun), yoxsa normativ qrammatikanın tələbidir? Bu qayda sadə dil daşıyıcısının gündəlik danışıq dilində işləyərmi? *Bu stansiyaya yaxınlaşarkən mənim şlyapam uçub getdi. – Подъезжая к сей станции, у меня слетела шляпа*. Bu cür konstruksiyalar sintaktik və üslubi səhfin klassik nümunəsi hesab olunur. Lakin digər tərəfdən, o, rusdilli mühitdə öz aktuallığını (və ya yaşamaq qabiliyyətini) hələ də qoruyub saxlayır.

Feili bağlama tərkiblərinin işlənməsi üçün aşkar "təhlükəni" cümlədə əsas xəbərin məchul və ya şəxssiz formada olması vəziyyəti təşkil edir. Lakin, digər tərəfdən, bizim məlumatlarımıza görə, qeyd olunan "vahid subyektlik" qaydasının pozulmasına feili bağlama tərkibləri olan konstruksiyaların 5–6 %-dən çoxunda rast gəlinmir. Deməli, dil daşıyıcısının şüurunda o, bu və ya digər şəkildə təmsil olunur, işləyir.

Bizim fikrimizcə, rus dilində mənsubiyyət əvəzliklərinin işlənməsi də subyektin gizli aksionallıq kateqoriyası ilə bağlıdır və bu, bizi maraqlandıran dördüncü məsələdir.

Bu əvəzliklərin semantikası və qrammatikası özlüyündə də diqqətə layiqdir, lakin bundan əlavə, üslubşünaslara və redaktorlara 1-ci şəxsin *mənim – мой*, və *bizim – нас*, 2-ci şəxsin *sənin – твой* və *sizin – вас*, 3-cü şəxsin *onun – его, onun – её* və *onların – их* possessivlərinin (mənsubiyyət əvəzliklərinin) "ümumşəxs" *öz – свой* əvəzliyi ilə əvəz edilməsi imkanı ilə bağlı problem yaxşı məlumdur. Rus dilində demək olar: *Mən gödəkçəmi unutdum / öz gödəkçəmi unutdum. – Я забыл мою куртку /свою куртку. Mənə konspektini / öz konspektini gətir. – Принеси мне твой конспект / свой конспект*. Lakin belə əvəzetmə yalnız o zaman məntiqli (və ya qanunauyğun) olur ki, ifadədəki subyekt ismin sintaktik rolu ilə uzlaşan kifayət qədər aksionallıq dərəcəsinə malik olsun. Əks təqdirdə, *öz – свой* əvəzliyi ilə əvəzetmə üslubi səhvlə nəticələnə bilər.

Ümumiyyətlə, rus dilində *öz – свой* kifayət qədər mürəkkəb (və ya çətin) sözdür, onun çoxlu mənaları var: həm "şəxsi, öz", həm "özünəməxsus, xüsusi", həm də "uyğun". Bəzən bu mənalar həm də birləşir, bir-biri ilə çarpazlaşır. Bədii mətnlərdən misallar əsasında göstərək ki, subyektin aşağı düşmüş rütbəsi zamanı öz – *свой* əvəzliyinin işlənməsi necə ikimənalılığa və ya ünsiyyət anlaşılmazlığına gətirib çıxarır. Ən sadə hal feilin dildən düzələn ismə (feili ismə) çevrilməsi ilə cümlənin nominallaşdırılmasıdır.

Əlbəttə ki, onun saysız-hesabsız, – nə danışmaq, – sonsuz müharibələrini öz sərkərdəlik dahi-qüdrətini sübut etmək istəyi ilə izah etmək gülməlidir (Y.

Naqibin). – *Разумеется, смешно объяснять многочисленные, да что там – бесконечные войны его желанием доказать свой полководческий гений* (Ю. Нагибин).

Rus dilində – *Он доказывает свой полководческий гений. – O öz sərkərdəlik dahi-qüdrətini sübut edir*. – demək tamamilə təbiidir. Lakin subyektin rütbəsində sintaktik enmə və cümlənin onun sübut etmək arzusu... şəklində transformasiyası sonrakı mərhələdə (öz deyil) onun sərkərdəlik dahi-qüdrətini seçməyi tələb edir. İfadədə bir neçə subyekt qeyd olunduqda, *öz – свой* sözünün işlənməsi ikimənalılığa gətirib çıxarır: *Bununla yanaşı, komissar "bütün şəxsi heyətin birbaşa rəisi" olmalı və "komandirə öz xidməti vəzifələrini vicdanla və fədakarlıqla yerinə yetirməkdə hərtərəfli köməklik göstərməyi öhdəsinə götürürdü. – При этом комиссар должен был стать «прямым начальником для всего личного состава и обязывался «всемерно помогать командиру честно и самоотверженно выполнять свои служебные обязанности*. – Söhbət kimin vəzifələrindən gedir: komissarın, yoxsa komandirin? Yalnız öz – свой sözünün dırnaq içində olması cümlənin mənasını düzgün başa düşməyə imkan verir. Lakin onu vəzifələri (обязанности) sözü ilə təyin etmək bunu daha tez və dəqiq edərdi.

Aqlütinativ quruluşlu Azərbaycan dilində aksionallıq kateqoriyası daha çox sözdüzəldici şəkilçilər, feilin növ kateqoriyaları (məchul, qayıdış, icbar və s.) və sintaktik əlaqə vasitələri ilə tənzimlənir. Azərbaycan dilində agentin fəallığı təsirli və təsirsiz feillərin sintaktik valensiyası ilə birbaşa bağlıdır. Nominativ və ya yönlük/yerlik halda olan subyektlərin predikatla uzlaşması aksionallıq dərəcəsini müəyyənləşdirir. Bəzi hallarda mürəkkəb sintaktik konstruksiyalarda və ya hibrid ifadə tərzi zamanı aksionallıq bildirən elementlərin uyğunsuzluğu baş verir ki, bu da cümlənin üslubi baxımdan qüsurlu olmasına gətirib çıxarır.

Flektiv sistemə malik rus dilində aksionallıq əsasən felin tərz, növ (zaloq) və şəxs kateqoriyaları, eləcə də isimlərin hallanma sistemi vasitəsilə reallaşır. Rus dilində fəal konstruksiyalarda agent bir qayda olaraq nominativ (başlanğıc) halda çıxış edir və hərəkət birbaşa subyektin iradəsi ilə idarə olunur. Məsələn, tranzitiv (təsirli) feillərlə qurulan sadə cümlələrdə aksionallıq maksimum səviyyədədir: "Subyekt hərəkəti icra edir və obyektə ötürür." Lakin rusdilli məişətdə və ya müəyyən üslubi qatlarda bəzən passiv və ya qeyri-şəxsi konstruksiyalarda aksionallığın zəifləməsi müşahidə olunur ki, bu da dil daşıyıcısının "təbii qrammatikası" çərçivəsində fərqli şəkildə qavranılır.

Beləliklə, qarşımızda subyektin aksionallığının azalmasının (xüsusilə feilin feili ismə transformasiyası zamanı baş verən) *öz – свой* əvəzliyinin işlənmə imkanlarını məhdudlaşdırmasına əsaslanan sistemli bir səhv durur [Норман: 2017, s.72-73]. Bu qayda kifayət qədər sərt deyil, o, qrammatik deyil, üslubi xarakter daşıyır. Buna baxmayaraq, belə misallar dilçinin (və oxucunun) diqqətini cəlb etdiyi üçün subyektin aksionallığı tələbi psixolinqvistik reallıq olaraq qalır.

Bizə göstərmək vacib idi ki, bəzi dil faktlarının (o cümlədən qrammatik qaydaların pozulmalarının) kökündə psixoloji (psixi) fəaliyyət mexanizmləri

dayanır. Xüsusən də, əgər hansısa kateqoriyanın özünəməxsus ifadə vasitəsi yoxdursa, o, "özgə" vasitələr vasitəsilə reallaşırsa, özü də buna əlavə olaraq gradual (mərhələli) və ya qeyri-səlis-çoxluq xarakteri daşıyırsa, onda onu formalaşdıran əlamətlər itir və qarışır. Lakin dolayı təzahürlər, cümlənin quruluş xüsusiyyətləri vasitəsilə həmin gizli kateqoriya yenə də özünü büruzə verir.

Aparılan təhlillər göstərir ki, Azərbaycan və rus dillərində aksionallıq bildirən sadə cümlələrin modelləşdirilməsi dillərin universal və spesifik xüsusiyyətlərini üzə çıxarmaqla yanaşı, sintaktik əlaqələrin və subyekt-predikat münasibətlərinin dərindən öyrənilməsində mühüm elmi-nəzəri əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT:

1. Попова З.Д. Синтаксическая система русского языка в свете теории синтаксических концептов. – Воронеж, 2009.

2. Мустайоки А. Теория функционального синтаксиса. От семантических структур к языковым средствам. – Москва, 2006.

3. Левицкий Ю.А. Наши грамматики // Грамматика разноструктурных языков. Сб. ст. к юбилею В.Ю. Копрова. – Воронеж, 2011.

4. Шмелев Д.Н. Синтаксическая членимость высказывания в современном русском языке. Москва, 1976.

5. Циммерлинг А.В. Неканонические подлежащие в русском языке // От значения к форме, от формы к значению. Сборник статей в честь 80 летия А.В. Бондарко / Отв. ред. М.Д. Воейкова. Москва, 2012.

6. Уорф Б.Л. Грамматические категории // Принципы типологического анализа языков различного строя / Отв. ред. Б.А. Успенский. Москва, 1972.

7. Булыгина Т.В., Шмелев А.Д. Языковая концептуализация мира (на материале русской грамматики).Москва, 1997.

8. Гордиевская М.Л. Скрытые категории русского языка и формирование синтаксического «запрета»: К постановке проблемы // Studiaz filologii polskieji słowiańskiej. 51. – Warszawa, 2016. – c. 120-139.

9. Русский язык / Под ред. Л.Л. Касаткина. Москва, 2001.

10. Сергеева В.И. Многофакторность субъекта предложения // Содержательные аспекты предложения и текста. Межвузовский тематический сборник / Отв. ред. И.П. Сусов. Калинин, 1983.

11. Золотова Г.А. О субъекте предложения в современном русском языке // Филологические науки. 1981. № 1.

12. Розенталь Д.Э. Справочник по правописанию и литературной правке. 2-е изд. Москва: 1999.

13. Золотова Г.А., Онипенко Н.К., Сидорова М.Ю. Коммуникативная грамматика русского языка. – Москва, 1998.

14. Желе А. Выражение разных степеней агентивности в словенском языке // Граматика и лексика у словенским језицима. Зборник радова с

међународног симпозијума / Гл. уред. С. Танасић. – Нови Сад – Београд, 2011. – с. 95-112.

15. Норман Б.Ю. Грамматика говорящего. СПб С.-Петербург, Издательство С.-Петербургского университета, 1994, 228 с.

16. Норман Б.Ю. Прагматический потенциал русской лексики и грамматики. Екатеринбург, 2017.

SEMANTIC-SYNTACTIC FEATURES OF ACTIONALITY AND SUBJECT-PREDICATE RELATIONS IN THE STRUCTURE OF A SIMPLE SENTENCE

SUMMARY

The article investigates the covert category of actionality, or action control. It occupies a unique place among other covert grammatical categories in the Azerbaijani and Russian languages. In scientific literature, it is customary to divide verbs into actional (e.g., to jump) and non-actional (e.g., to smell). Lacking special means of expression, actionality is realized through the features of the utterance's syntactic structure. It manifests itself, in particular, in the requirement for a shared agent of action between the main predicate and the gerundial clause. The manifestation of actionality is demonstrated in constructions employing the possessive pronoun öz – свой.

Keywords: *activity, controllability of action, producer of action, participle, possessive pronoun.*

СЕМАНТИКО-СИНТАКСИЧЕСКИЕ ОСОБЕННОСТИ АКЦИОНАЛЬНОСТИ И СУБЪЕКТНО-ПРЕДИКАТНЫЕ ОТНОШЕНИЯ В СТРУКТУРЕ ПРОСТОГО ПРЕДЛОЖЕНИЯ

РЕЗЮМЕ

В статье исследуется скрытая категория акциональности или управления действием. Она занимает особое место среди других скрытых грамматических категорий в азербайджанском и в русском языках. В научной литературе принято делить глаголы на акциональные (например, прыгать) и неакциональные (например, пахнуть). Не имея специальных средств выражения, акциональность реализуется через особенности синтаксической структуры высказывания. Она проявляется, в частности, в требовании общего агента действия между главным сказуемым и деепричастным оборотом. Проявление акциональности демонстрируется в конструкциях с использованием притяжательного местоимения öz – свой.

Ключевые слова: *акциональность, управляемость действия, производитель действия, деепричастие, притяжательное местоимение.*